Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 54 saylı Şabran – Siyəzən seçki dairəsindən Pirəmsən bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsayev Elxan Hüseyn oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 19 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 13 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 54 saylı Şabran – Siyəzən seçki dairəsindən Pirəmsən bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsayev Elxan Hüseyn oğlunun 11 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 54 saylı Şabran – Siyəzən seçki dairəsindən Pirəmsən bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsayev Elxan Hüseyn oğlu 11 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, müvafiq dairə seçki komissiyası tərəfindən namizədliyinin qeydə alınıb-alınmaması barədə ona sənəd təqdim edilmədiyini bildirmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Vətəndaş E.H.İsayev şikayətini onunla əsaslandırmışdır ki, 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 54 saylı Şabran – Siyəzən seçki dairəsindən Pirəmsən bələdiyyəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, həmin bələdiyyə ərazisində seçicilərin imzasını

toplayaraq imza vərəqəsini və ona əlavə edilmiş digər zəruri sənədləri DSK-ya təqdim etmiş, lakin müvafiq dairə seçki komissiyası tərəfindən namizədliyinin qeydə alınıb-alınmaması barədə ona sənəd təqdim edilməmişdir.

Araşdırma prosesində müəyyən edilmişdir ki, E.H.İsayev 54 saylı Şabran – Siyəzən seçki dairəsindən Pirəmsən bələdiyyəsi üzvlüyünə namizəd kimi DSK-nın 18 noyabr 2014-cü il tarixli 19/47 saylı qərarı ilə qeydə alınmşıdır. Lakin sonradan E.H.İsayevin müraciəti əsasında DSK-nın 5 dekabr 2014-cü il tarixli 26/65 saylı qərarı ilə onun Pirəmsən bələdiyyəsi üzrə namizəd kimi qeydiyyatı ləğv edilmişdir.

Ərizəçi E.H.İsayev 13 dekabr 2014-cü ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizdliyindən imtina etmədiyini bildirmiş və onun namizəd kimi qeydiyyata alınması barədə DSK-nın müvafiq qərarının qüvvədə saxlanılmasını xahiş etmişdir.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının müvafiq qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olması müəyyən edilmişdir. Buna görə də 54 saylı Şabran – Siyəzən seçki dairəsi dairə seçki komissiyasının E.H.İsayevin Pirəmsən bələdiyyəsi üzrə namizəd kimi qeydiyyatının ləğv edilməsi barədə 5 dekabr 2014-cü il tarixli 26/65 qərarı ləğv edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və “Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 54 saylı Şabran – Siyəzən seçki dairəsindən Pirəmsən bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsayev Elxan Hüseyn oğlunun 11 dekabr 2014-cü il tarixli, 19 saylı müraciəti təmin edilsin, onun namizəd kimi qeydiyyatının ləğvinə dair müvafiq dairə seçki komissiyasının 5 dekabr 2014-cü il tarixli, 26/65 saylı qərarı ləğv edilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov